# NƏQLİYYAT VASİTƏLƏRİNİN SIĞORTA QAYDALARI

## ÜMUMİ HİSSƏ

### BÖLMƏ I. ÜMUMI MÜDDƏALAR

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır və nəqliyyat vasitələrinin sığortalanması üzrə qaydaları müəyyən edir.

1.2. Sığorta müqaviləsində və bu Qaydalarda nəzərdə tutulmayan hallar Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

2. ƏSAS ANLAYIŞLAR

2.0. Qaydalarda aşağıdakı əsas anlayışlar istifadə olunur:

2.0.1. **nəqliyyat vasitəsi (NV):**

**1. avtomobil – minik, yük, minik-yük;**
**2. avtobuslar və digər sərnişin daşıyan NV;**
**3. qoşqu və yarım qoşqu;**
**4. motosiklet, motoroller, arabalı motosiklet;**
**5. tərəflərin razılığı əsasında –** digər ozügedən, o cümlədən kənd təsərrüfatı və yedəyə alınan NV-i, köməkcı və digər mexanizmlər.

2.0.2. **sığortaçı** – sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və bu Qaydalarla müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi;

2.0.3. **sığortalı** – sığorta haqqı ödəyərək NV sığorta etdirən sığorta müqaviləsinin tərəfi;

2.0.4. **sığorta olunan** - sığorta müqaviləsi əsasında NV ilə, o cümlədən NV-ni idarə etməsi və istismarı ilə bağlı risklərlə əlaqədar əmlak mənafeləri sığortalanan şəxs;

2.0.5. **NV-nin sahibi** - mülkiyyətində NV olan, yaxud NV-nə digər qanuni əsasla (icarə hüququ ilə, nəqliyyat vasitəsini idarə etmək hüququna dair etibarnamə üzrə və s.) sahiblik edən şəxs;

2.0.6. **faydalanan şəxs –** sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi almaq hüququ olan şəxs;

2.0.7. **sürücü –** sığorta müqaviləsi ilə sığortalanmış NV-ni AR mövcüd qanunvericiliyinə uyğun olaraq idarə etmək hüququ olan fiziki şəxs, bu Qaydaların 5.3-cü bəndində nəzərdə tutulmuş halda isə müvafiq NV-i idarə etmək hüququ olan sığorta müqaviləsində ***sığorta olunan*** qismində göstərilən şəxs ;

2.0.8. **sığorta riski** – sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı;

2.0.9. **sığorta hadisəsi –** sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

2.0.10. **sığorta ödənişi –** sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

2.0.11. **sığorta müqaviləsi –** sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində NV-nin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılmış pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi yazılı razılaşma;

2.0.12. **sığorta şəhadətnaməsi –** sığorta müqaviləsinin bağlanmasını təsdiq edən və sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

2.0.13. **sığorta obyekti** – sığortalının, yaxud sığorta olunanın NV-ə sahiblik, istismar və ya istifadəsi ilə bağlı qanunazidd olmayan əmlak mənafeləri;

2.0.14. **sığorta predmeti** – Qaydaların II Bölməsinə münasibətdə sığortalanan NV, III Bölməsinə münasibətdə həmin NV-in sahibinin mülki məsuliyyətinin yaranması halı, IV Bölməsinə münasibətdə isə həmin NV-in sürücüsünün və/ və ya sərnişinlərinin həyat və sağlamlığına dəyə bilən zərər;

2.0.15. **sığorta müddəti –** sığorta müqaviləsinin qüvvədə olduğu müddət;

2.0.16. **sığorta haqqı** – sığorta etdirilən NV ilə əlaqədar risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir;

2.0.17. **sığorta məbləği** - sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

2.0.18. **azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta müqaviləsi ilə təminat verilməyən və sığortalının üzərində qalan hissəsi;

2.0.19. **NV-nin istismar və ya istifadə olunması** – NV-nin ərizə formasında və ya sığortalının müraciətində göstərilmiş məqsədlərə və/və ya istehsalçı tərəfindən nəzərdə tutulan istismar şərtlərinə müvafiq olaraq istismar və ya istifadə olunması. Nəqliyyat vasitəsinin özündə, qoşqusunda, yarımqoşqusunda, treylerində quraşdırılmış, lakin onların yol hərəkətində iştirakı ilə birbaşa bağlı olmayan qurğu və avadanlıqların istismarı nəqliyyat vasitəsinin istifadəsi və istismarı hesab edilmir.

2.0.20. **NV-nin bazar dəyəri –** NV-nin mövcüd bazar konyukturası ilə müəyyən edilən qiyməti;

2.0.21. **sığorta tələbi** - sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığorta ödənişinin həyata keçirilməsi məqsədilə sığortaçıya ünvanladığı müraciət.

## 3. SIĞORTANIN SINIFLƏRI

3.1. Bu Qaydalar NV-lərin sığortası növü üzrə aşağıdakı sığorta siniflərini əhatə edir:

3.1.1. nəqliyyat vasitələrinin sığortası;

3.1.2. nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası;

3.1.3. fərdi qəza və xəstəlik sığortası.

3.2. Sığortalının seçimi əsasında sığorta müqaviləsində göstərilməklə Qaydaların 3.1-ci bəndində nəzərdə tutulan bir, yaxud bir neçə sığorta sinfi üzrə Qaydaların Xüsusi hissəsininin müvafiq bölmələrində və ya sığorta müqaviləsində müəyyən edilən şərtlərlə sığorta təminatı verilə bilər.

## 4. SIĞORTANIN PREDMETI VƏ SIĞORTA RISKLƏRI

4.1. Sığorta predmeti və sığorta riskləri Qaydaların Xüsusi Hissəsində hər bir bölmə üzrə ayrılıqda müəyyən edilir.

4.2. Qanunvericiliyə və sığorta təcrübəsinə zidd olmadığı hallarda, sığorta müqaviləsi ilə bu Qaydaların Xüsusi Hissəsində nəzərdə tutulmayan risklər, o cümlədən digər sığorta siniflərinə daxil olan risklər üzrə də sığorta təminatı verilə bilər.

## 5. SIĞORTA MÜQAVILƏSININ TƏRƏFLƏRI VƏ AID OLDUĞU DIGƏR ŞƏXSLƏR

5.1. ***Sığortaçı*** sığorta müqaviləsinin tərəfi olan “A-Qroup Sığorta Şirkəti” ASC.

5.2. İstənilən fəaliyyət qabiliyyətli fiziki şəxs və ya hüquqi şəxs ***sığortalı*** qismində sığortaçı ilə sığorta müqaviləsi bağlayaraq NV ilə bağlı riskləri bu Qaydalara əsasən sığorta etdirə bilər.

5.3. Sığorta müqaviləsində yalnız ***sığorta olunan*** qismində göstərilən şəxslərin (sürücülərin) NV-ni idarə etdiyi hallara sığorta təminatının verilməsi şərti müəyyən edilərsə, bu Qaydaların 5.4-cü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla başqa şəxslərin NV-ni idarə etməsi ilə bağlı risklər sığortalanmış hesab edilmir.

5.4. Sığorta müqaviləsində fiziki şəxs olan sığortalı sığorta olunan sürücülərin siyahısında göstərilmədikdə də onun sığorta olunan qismində tanınması heç bir halda, o cümlədən müqavilə şərtləri ilə məhdudlaşdırıla bilməz, bu şərtlə ki, Sığortalının NV-ni idarə etmək hüququ olsun.

5.5. Qaydaların II Bölməsi üzrə sığorta müqaviləsində ***faydalanan şəxs*** qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı faydalanan şəxs sayılır. Qaydaların III Bölməsi üzrə zərərçəkən üçüncü şəxs və (və ya) ona dəymiş zərərin əvəzini ödəmiş, lakin zərərin vurulmasında təqsirli olmayan digər şəxs, habelə zərərçəkən üçüncü şəxsin vərəsələri faydalanan şəxs sayılır. Qaydaların IV Bölməsi üzrə sağlamlığına zərər dəymiş sürücülər və (və ya) sərnişinlər, həmçinin onların vərəsələri faydalanan şəxs sayılır.

5.6. Sığortalı sürücünü sığorta müqqaviləsinin şərtləri ilə tanış etməlidir. NV-nin istifadə və ya istismar olunması zamanı sürücü Sığortalının hazırkı qaydalarla müəyyən olunmuş vəzifələrini daşıyır. Sürücü tərəfindən sığortalının vəzifələrinin yerinə yetirilməməsi sığortralının bu vəzifələri yerinə yetirməməsi kimi başa düşülür və eyni nəticələrə səbəb olur.

5.7. Bu Qaydaların Sığortalıya aid olan bütün müddəaları Sığorta müqaviləsində göstərilmiş sürücüyə, Sığorta olunanlara və Faydalanan şəxsə da eyni dərəcədə aid edilir.

5.6. Bu sığortanın məqsədləri ücün Sığortalının fəaliyyətinə qanunvericiliyə, Sığorta müqaviləsinə, vəzifə təlimatlarına, etibarnaməyə və ya mövcud adətlərə müvafiq olaraq Sığortalının

adından cıxış etmək ücün səlahiyyətləndirilmiş onun işçilərinin, vəzifəli şəxslərinin və digər nümayəndələrinin hərəkətləri də aid edilir.

5.7. Aşağıdakılardan başqa (bu Qaydaların 5.8-ci bəndində nəzərdə tutulan hal istisna olmaqla) bu Qaydaların məqsədləri üçün sığorta və daşıma müqaviləsi üzrə tərəf hesab olunmayan, yol-nəqliyyat hadisəsi nəticəsində zərər çəkən hüquqi və fiziki şəxslər, habelə onların qanuni vərəsələri (hüquqi varisləri) üçüncü şəxslər sayılırlar:

- nəqliyyat vasitəsinin sahibi və ya sürücüsü;
- Öz ailə üzvlərinin (həyat yoldaşı, valideynləri, övladları, nəvələri) səhhətinə və ya əmlakına zərər vuran NV-nin sahibinin, yaxud sürücüsünün həmin ailə üzvləri;
- NV-nin sahibinin xidməti vəzifəsini yerinə yetirən işçisi.

5.8. Yol hərəkəti zamanı iki və daha artıq nəqliyyat vasitəsinin toqquşması nəticəsində zərər çəkənlərdən hər biri digəri qarşısında üçüncü şəxs sayılır.

## 6. SIĞORTA MÜQAVILƏSININ BAĞLANMASI

6.1. Sığorta müqaviləsi, sığortalının (sığortaçı tərəfindən müəyyən olunmuş müvafiq məlumatları göstərməklə) müraciəti əsasında bağlanılır. Sığortalının təqdim etdiyi bütün məlumatlar və sənədlər sığorta müqaviləsinin tərkib hissəsi hesab edilir.

6.2. Sığortalı özünə məlum olan, Sığortaçının sığorta riskinin dərəcəsini müəyyənləşdirməsinə təsir edə biləcək halları Sığortaçıya bildirməlidir.

6.3. Sığorta müqaviləsi yazılı formada aşağıdakı kimi bağlanır:

6.3.1. tərəflərin bu Qaydalar əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;

6.3.2. Sığortalının bu Qaydalarla tanış olmasını və onun şərtləri ilə razılaşmasını yazılı qaydada təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən sığortalıya sığorta şəhadətnaməsinin və bu Qaydaların bir nüsxəsinin verilməsi yolu ilə.

6.4. Tərəflər müqaviləyə qanunvericiliyə zidd olmayan əlavə müddəaların daxil edilməsi barədə razılığa gələ bilərlər, belə hallarda sığorta müqaviləsinin müddəaları tətbiq edilir.

## 7. SIĞORTA MÜQAVILƏSINƏ ƏLAVƏLƏR VƏ DƏYIŞIKLIKLƏRIN EDILMƏSI

7.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində ona Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan əlavələr və dəyişikliklər edilə bilər. Sığorta müqaviləsinə edilən əlavələr və dəyişikliklər yazılı formada tərtib olunmalı və hər iki tərəfdən imzalanmalıdır.

7.2. Sığortaçı sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə sığorta riskinin artmasına səbəb olan dəyişikliklər barədə məlumat aldıqda sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini, o cümlədən sığorta haqqının artırılmasını və ya müqavilədən imtina edilməsini tələb edə bilər. Sığortalı sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsi tələbi ilə razılaşmadıqda, sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsini tələb edə bilər.

## 8. SIĞORTA MÜDDƏTI VƏ SIĞORTA ƏRAZISI

8.1. Sığortanın müddəti sığorta müqaviləsi ilə müəyyən olunur.

8.2. Sığorta müddəti, sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta təminatının başlanma tarixində saat 24:00-da başlanır və sığorta təminatının bitmə tarixində saat 24:00-da başa çatır.

8.3. İpotekada olan NV ilə bağlı sığorta müqaviləsinin müddətinin uzadılmasına ipoteka qoyan sığortalının etirazı yalnız ipoteka saxlayanın razılığı olduqda qəbul edilə bilər.

8.4. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmadığı hallarda, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə, sığortaçı onun ödənilməsi üçün yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

8.5. Sığorta haqqı və ya onun sığorta müqaviləsi ilə müəyyən olunmuş birinci hissəsi bu Qaydaların 8.4-cü bəndində müəyyən edilmiş müddətdə ödənilmədikdə sığorta müqaviləsi qüvvədən düşmüş hesab olunur.

8.6. Sığorta haqqının sığorta müqaviləsi ilə müəyyən olunmuş növbəti hissəsi sığorta müqaviləsində həmin hissənin odənilmə tarixi kimi müəyyən edilən tarixdən sonrakı 7 gün müddətində ödənilmədikdə, sığorta müqaviləsi həmin müddətin başa çatması ilə qüvvədən düşmüş hesab olunur.

8.7. Bu Qaydaların 10.1.8-ci bəndi istisna olmaqla, sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə üçün əsas olan hər hansı digər hal yarandıqda, sığorta müqaviləsi həmin halın yarandığı andan etibarən qüvvədən düşmüş hesab edilir.

8.8. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

8.9. Sığorta müqaviləsinin qüvvədə olduğu ərazi tərəflərin yazılı razılığı ilə dəyişdirilə bilər.

## 9. SIĞORTA MÜQAVILƏSININ TƏRƏFLƏRININ HÜQUQ VƏ VƏZIFƏLƏRI

9. 1. Sığorta müqaviləsi bağlanarkən sığortalı sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq hüququna malikdir.

9. 2. Sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməlidir.

9. 3. Əgər sığorta müqaviləsi bağlanandan sonra sığortalının müqavilə bağlanarkən qəsdən yalnış məlumat verməsi aşkar olunarsa, sığorta müqaviləsi etibarsız hesab olunur və sığorta hadisəsi baş verdikdə sığorta ödənişinin verilməsindən imtina edlir.

9. 4. Eyni sığorta marağı ilə bağlı bir neçə sığortaçı ilə sığorta müqaviləsi bağlayan sığortalı bu barədə sığortaçılardan hər birinə məlumat verməlidir. Həmin məlumatda digər sığortaçının adı və müvafiq sığorta məbləği göstərilməlidir. Tələb edildikdə, bu məlumatları təsdiq edən müvafiq sənədlər təqdim olunmalıdır.

9. 5. Sığorta müqaviləsi bağlandıqdan sonra həmin müqavilənin qüvvədə olduğu müddət ərzində sığortalı sığorta riskinin dəyişməsinə təsir göstərə bilən aşağıdakı hallar barədə bildiyi və ya bilməli olduğu tarixdən 5 iş günü müddətində bu barədə sığortaçıya yazılı məlumat verməlidir:

9.5.1. NV-nin özgəninkiləşdirilməsi, onun icarəyə verilməsi və ya ona olan mülkiyyət, sahiblik və istifadə hüquqlarının itirilməsi, məhdudlaşması və ya üçüncü şəxsə kecməsi;

9.5.2. nömrəli aqreqatların – mühərrik, şassı və banın dəyişdirilməsi;

9.5.3. sığortalanmış NV-nin sığorta hadisəsi hesab edilməyən hadisədə dəyərinin ən azı 10 faiz məbləğində zərərlə nəticələnən zədələnməsi;

9.5.4. NV-nin dövlət qeydiyyatı haqqında sənədlərinin itməsi, oğurlanması və ya dəyişdirilməsi;

9.5.5. NV-nin açarlarının itirilməsi və ya oğurlanması.

9.5.6. NV-nin ərizə formasında və ya sığortalının bəyan etdiyi məqsədlərdən fərqli məqsədlər üçün istifadə edilməsi;

9.5.7. NV-nin Dövlət Yol Polisi orqanlarında qeydiyyatdan çıxarılması və ya NV-nin Dövlət Yol Polisi orqanlarında təkrar qeydiyyata alınması;

9.5.8. Sığorta müqaviləsinin şərtlərinə müvafiq olaraq, sürücülərin siyahısında dəyişikliklərin edilməsi;

9.5.9. NV-nə aid olan və Sığortalı tərəfindən bəyan edilən məlumatların və halların dəyişməsi;

9.5.10. sığorta riskinə təsir edən digər dəyişikliklər.

9. 6. Sığorta riskinin əhəmiyyətli dərəcədə artmasına təsir göstərə bilən hallar haqqında məlumatı aldıqdan sonra Sığortaçı :

9.6.1. Sığorta müqaviləsinə müvafiq dəyişikliklərin edilməsini tələb edə bilər;

9.6.2. Əlavə sığorta haqqının ödənilməsini tələb edə bilər;

9.6.3. Sığorta müqaviləsinə xitam verə bilər.

9. 7. Aşağıdakı hallarda sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam yerinə yetirmiş hesab edilir:

9.7.1. Sığorta müqaviləsi üzrə verilmiş sığorta ödəniş(lər)inin ümumi həcmi ümumi sığorta məbləğinə bərabər oduqda;

9.7.2. NVin oğurlanması, qaçırılması və ya tam məhv olmasına görə sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verildikdə;

9.7.3. sığorta müqaviləsi üzrə sığorta məbləği ilk sığorta hadisəsi üzrə nəzərdə tutulduğu hallarda, ilk sığorta hadisəsi üzrə sığorta ödənişi verildikdə.

## 10. SIĞORTA MÜQAVILƏSINƏ VAXTINDAN ƏVVƏL XITAM VERILMƏSI

10.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

10.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;

10.1.2. Qaydaların 10.3-cü bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda;

10.1.3. sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunanın öldüyü halda sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

10.1.4. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

10.1.5. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam yerinə yetirdikdə;

10.1.6. sığortalı sığorta haqqını qanunvericilikdə və sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

10.1.7. sığorta marağı artıq mövcud olmadıqda;

10.1.8. sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbini irəli sürdükdə.

10.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, şəraitdən asılı olaraq aşağıdakılar tətbiq edilir:

10.2.1. NV sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə müqavilə (və ya sığorta müqaviləsinin NV sahiblərinin mülki məsuliyyətinin sığortasına aid olan bölməsi) məhkəmə qərarının qüvvəyə mindiyi andan xitam verilmiş hesab edilir; məhkəmənin müvafiq qərarının qüvvəyə mindiyi andan əvvəlki tarixdə sığortalanmış NV-nin idarə edilməsinin qanuni əsaslarla başqa şəxsə də həvalə edildiyi və bununla sığortaçının razılaşdığı hallarda isə sığorta müqaviləsi (və ya sığorta müqaviləsinin NV sahiblərinin mülki məsuliyyətinin sığortasına aid olan bölməsi) üzrə sığortalının hüquq və vəzifələri həmin şəxsə keçir.

10.2.2. NV-lərinin sığortası üzrə, habelə NV-lərinin sürücüsü və sərnişinlərinin fərdi qəza sığortası üzrə sığortalının hüquq və vəzifələrini, sığortaçının razılaşdığı hallarda, onun qəyyumu və ya himayəçisi həyata keçirir.

10.3. Sığortalı fiziki şəxs öldükdə, aşağıdakı hallarda sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilmir:

10.3.1. Sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış NV-ni qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs ölərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri mülki qanunvericiliklə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

10.3.2. qanunvericilikdə və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir.

10.3.3. sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri qanunvericiliyə uyğun olaraq müvafiq hüquq varisinə keçir.

10.4. Qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.

## 11. SIĞORTA MÜQAVILƏSINƏ VAXTINDAN ƏVVƏL XITAM VERMƏ ILƏ BAĞLI XƏBƏRDAR ETMƏ

11.1. Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda, bu Qaydaların 11.2-ci bəndi nəzərə alınmaqla, müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

11.2. Sığorta müqaviləsinə bu Qaydaların 10.1.8-ci bəndinə uyğun olaraq, sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) yazılı bildiriş göndərməlidir.

11.3. İpotekada olan NV ilə bağlı sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam vermə yalnız ipoteka saxlayanın razılığı olduqda həyata keçirilə bilər.

11.4. Xitam barədə bildiriş Sığorta müqaviləsinin ləğvi tarixini özündə əks etdirməklə Sığortalının və ya Sığortaçının Sığorta müqaviləsində göstərilən ünvanına göndərildikdə, Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən ləğv edilmiş sayılır. Bu bildirişin poçt vasitəsilə göndərilməsi, yuxarıda göstərildiyi kimi, həmin xəbərdarlığın edilməsi faktının sübut edilməsi ücün kifayətdir və Sığorta müqaviləsinə bildirişdə göstərilən tarixdən və vaxtdan xitam verilmiş hesab edilir.

## 12. SIĞORTA MÜQAVILƏSINƏ VAXTINDAN ƏVVƏL XITAM VERMƏNIN NƏTICƏLƏRI

12.1. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi halında sığorta haqlarının müvafiq hissəsinin qaytarılması ilə bağlı münasibətlər aşağıdakı qaydada həll edilir:

12.1.1. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı NV-nə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla sığortaçı müqavilənin (qrup halında sığorta zamanı müqavilənin hər hansı NV-nə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; bu halda sığortaçı sığorta haqqının qaytarılan hissəsindən sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı NV ilə bağlı sığorta haqqına mütənasib olan) işlərin aparılması xərclərinin həmin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxır; əgər sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı NV üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

12.1.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı NVə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı NV üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı NV üzrə ödənilmiş sığorta haqlarını) qaytarır; bu halda sığortaçı sığorta haqqının qaytarılan hissəsindən sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı NV ilə bağlı sığorta haqqına mütənasib olan) işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxır.

12.1.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir NVə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir NV üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir NV üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

12.1.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir NV üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 12.1.1-ci və 12.1.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

12.1.5. Sığorta müqaviləsinə bu Qaydaların 10.2-ci bəndində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir NVə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Qaydaların 12.1.3-cü və 12.1.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

12.2. Bu Qaydaların 12.1.1-ci, 12.1.2-ci və 12.1.5-ci bəndlərinin məqsədləri üçün işlərin aparılması xərclərinin qaytarılan sığorta haqqı məbləğindən çıxılan hissəsi həmin məbləğin 25 faizi həcmində müəyyən edilir.

12.3. Bu Qaydalara müvafiq olaraq qaytarılmalı olan sığorta haqqının istifadə olunmamış müddəti üçün hesablanması gündəlik pro-rata əsasında aparılır.

## 13. SIĞORTA HAQQI

13.1. Sığorta haqqı, onun hesablanması və ödənilməsi qaydası Sığorta müqaviləsi ilə müəyyən edilir.

13.2. Sığorta müqaviləsində sığorta haqqının birdəfəlik və ya hissə-hissə ödənilməsi razılaşdırıla bilər.

13.3. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 13.4-cü bəndinin tələbini nəzərə alaraq yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

13.4. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

13.5. NV-nin oğurlanması, qaçırılması, tam məhvi və ya qismən zədələnməsi ilə ilə nəticələnən sığorta hadisəsi baş verdiyi hallarda həmin hadisənin baş verdiyi anadək sığorta haqqı tam məbləğdə odənilməmişdirsə, sığortaçı sığorta haqqının ödənilməmiş hissəsini sığorta ödənişi məbləğindən çıxır.

## 14. SIĞORTA MƏBLƏĞİ

14.1. Sığorta müqaviləsində sığorta məbləğinin aşağıdakı növləri müəyyən oluna bilər:

14.1.1. ***Ümumi sığorta məbləği –*** müəyyən edildiyi hallarda sığortaçının sığorta müqaviləsi üzrə öhdəliyinin həcmi verilmiş sığorta ödənişi məbləğində azalır.

Sığortalı ümumi sığorta məbləğinin sığorta müqaviləsində nəzərdə tutulmuş həddə bərpa edilməsini istədikdə bərpa edilməli olan hissəyə müvafiq əlavə sığorta haqqı ödəməlidir.

14.1.2. ***Sığorta hadisəsi üzrə sığorta məbləği*** - müəyyən edildiyi hallarda həmin məbləğ sığortaçının hər bir sığorta hadisəsi üzrə öhdəliyinin son həddi hesab edilir və sığorta hadisələrinə görə sığorta ödənişlərinin verilməsi nəticəsində azalmır.

14.1.3. ***Bir sığorta hadisəsi üzrə sığorta məbləği*** - müəyyən edildiyi hallarda sığortaçının sığorta müddəti ərzində baş vermiş yalnız bir hadisə üzrə həmin məbləğ həddində sığorta ödənişi vermək öhdəliyi nəzərdə tutulur.

14.2. Əgər sığorta müqaviləsində və ya onun müvafiq sığorta sinfinə aid edilən bölməsində sığorta məbləğinin bu Qaydaların 14.1-ci bəndində göstərilən hər hansı növünün tətbiq olunması nəzərdə tutulmamışdırsa, sığorta məbləğinin 14.1.1-ci bənddə göstərilmiş növü tətbiq edilir.

## 15. AZADOLMA MƏBLƏĞİ

15.1. Sığorta müqaviləsində aşağıdakı növlərdə azadolma məbləğləri müəyyən edilə bilər:

15.1.1. Şərtli azadolma nəzərdə tutulduqda, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən (azadolma məbləğindən) çox olduqda, zərər məbləğindən azadolma məbləği çıxılmır.

15.1.2. Şərtsiz azadolma nəzərdə tutulduqda, azadolma məbləği hər bir halda zərər məbləğindən çıxılır və sığortaçı tərəfindən ödənilmir.

15.2. Sığorta müqaviləsində nəzərdə tutulmuş azadolma məbləğinin şərtli və ya şərtsiz olması müəyyənləşdirilməmişdirsə, həmin müqavilə üzrə şərtsiz azadolma məbləği tətbiq olunur.

15.3. Azadolma məbləği həm pul məbləği, həm də sığorta məbləğinin və ya zərər məbləğinin faiz nisbəti ilə ifadə oluna bilər.

15.4. Sığorta müqaviləsində müxtəlif hallar üçün müxtəlif azadolma məbləğləri müəyyən oluna bilər.

## 16. SIĞORTA TƏMINATINDA MƏHDUDIYYƏTLƏR

16.1. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmursa, aşağıdakılara münasibətdə sığorta təminatı verilmir:

16.1.1. aşağıda göstərilən hallarda dəyən zərər və ya yaranan məsuliyyət:

16.1.1.1. NV-nin sığortalanması zamanı sığortalının bəyan etdiyi məqsədlərdən, habelə NV-nin istehsalçının müəyyən etdiyi təyinat üzrə istifadə edilməməsi;

16.1.1.2. NV-nin istehsalçı tərəfindən müəyyən olunmuş istismar şərtlərinin pozulmaqla istifadə edilməsi, o cümlədən istehsalçı tərəfndən müəyyən olunmuş yük və/ və ya sərnişinlərin normalardan artıq daşınması;

16.1.1.3. təmir və ya xidmət olunma məqsədilə texniki xidmət müəssisəsinin və ya yuyulmaq üçün avtoyuyucunun sərəncamında olduğu hallar istisna olmaqla, NV-nin bu Qaydalara və sığorta müqaviləsinə görə sürücü hesab edilməyən şəxs tərəfindən idarə olunması;

16.1.1.4. Sürücünün NV-ni alkoqolun, narkotik vasitələrin, psixotrop, toksik, sedativ və ya güclü təsir göstərən digər maddələrin təsirindən sərxoş vəziyyətdə olmaqla idarə etməsi;

16.1.1.5. hərbi əməliyyatlar, həmcinin hərbi manevrlər və digər hərbi tədbirlər; terrorçuluq, kütləvi iğtişaşlar, tətillər, vətəndaş müharibəsi, və bunların qarşısının alınması və ya yatırılması məqsədilə keçirilən inzibati və hərbi tədbirlər nəticəsində dəyən zərərlər.

16.1.1.6. nüvə partlayışı, radiasiya, radioaktiv çirklənmə; nüvə enerjisinin istənilən formada təsiri və bunlarla əlaqədar keçirilən hərbi və ya inzibati tədbirlər nəticəsində dəyən zərərlər;

16.1.1.7. NV-nin təlim və ya məşq məqsədilə, yaxud yarışlarda, yürüşlərdə, sürət müsabiqələrində, sürət sınaqlarında, rallilərdə və digər avtomotonəqliyyat yarışlarında, davamlılıq sınaqlarında, həmçinin avtonəqliyyat vasitələrinin satışı ilə bağlı reklam və ya test-drayvda istifadə edilməsi;

16.1.1.8. dövlət orqanları tərəfindən avtonəqliyyat vasitəsinin daşınması, saxlanması və ya məhv edilməsi;

16.1.1.9. hərbi və mülki hökumət orqanlarının əmri ilə sığortalanmış əmlakın müsadirə, rekvizisiya, həbs və məhv edilməsi və ya zədələnməsi;

16.1.1.10. sığortalının və ya sığorta olunanın və ya faydalanan şəxsin sığorta hadisəsinin baş verməsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi;

16.1.1.11. NV-nin sığorta ərazisindən kənarda istismar olunması.

16.1.1.12. NV-nin hər hansı qeyri-qanuni ticarət, daşıma və ya cinayət məqsədilə istifadə edilməsi;

16.1.1.13. NV-nin sığortalının ailə üzvləri, işçiləri və ya ona xidmət edən şəxslər tərəfindən qaçırılması, oğurlanması, istənilən digər formada talanması və ya bunlara cəhd edilməsi;

16.1.1.14. NV-nin təyyarələrin enib-qalxdığı təyyarə limanı, aerodrom və ya hərbi bazanın ərazisində istifadə edilməsi, hava limanının təyyarə meydanında, uçuş-enmə zolağında və ya bu kimi yerlərin hər hansı bir hissəsində istifadə edilməsi nəticəsində;

16.1.1.15. qanunvericiliklə müəyyən olunmuş müddətdə texniki baxışdan keçməyən nəqliyyat vasitələri üzrə hadisə baş verdiyi zaman, hadisənin səbəbi mövcud olan texniki nasazlıqla bağlı olduqda;

16.1.1.16. Texniki nasazlığı Sığortalıya əvvəlcədən məlum olduğu təqdirdə belə vəziyyətdə olan nəqliyyat vasitəsinin istismar edilməsi;

16.1.1.17. sığortalanmış NV-nin hər hansı digər nəqliyyat vasitəsini yedəkləməsi nəticəsində baş verən hər hansı zərər, xəsarət və ya yaranan məsuliyyət.

Lakin bu sığorta, sığortalanan NV-nin sığorta hadisəsi nəticəsində sürülməz hala düşməsi zamanı digər nəqliyyat vasitəsi tərəfindən qanunvericiliyin tələblərinə müvafiq surətdə yedəklənməsi nəticəsində dəyən zərərlərə təminat verir.

16.1.1.18. NV-nin hər hansı digər nəqliyyat vasitəsinə yüklənməsi və ya həmin nəqliyyat vasitəsindən boşaldılması və ya NV-nin hər hansı digər nəqliyyat vasitəsilə daşınması nəticəsində yaranan zərər və ya məsuliyyət. Lakin bu istisna, sığortalanmış NV-nin sığorta hadisəsi nəticəsində sürülməz hala düşməsi zamanı müvafiq dövlət orqanının tələbi və ya Sığortaçının icazəsi ilə daşınması nəticəsində NV-nə dəyən zərərə tətbiq edilmir.

16.1.1.19. Sığortalının Sığortaçı ilə razılaşdırdığı müddət ərzində sığorta riskinin baş verməsi ehtimalını artıran amillərin aradan qaldırmaması nəticəsində baş vermiş hadisələr.

16.1.1.20. Sığortalanmış NV-nə, onun yüklənilməsi, boşaldılması və ya onunla yüklərin daşınması, ona yüklərin doldurulması və boşaldılması nəticəsində dəymiş zərərlər;

16.1.1.21. Sərnişinlərin ödənişli daşınması;

16.1.1.22. Aşağıdakı məqsədlər üçün hər hansı nəqliyyat vasitəsinə sahiblik, texniki xidmət, onun istismarı və saxlanması ilə əlaqədar baş verən istənilən zərər, xəsarət və yaranan məsuliyyət:

a) nitroqliserin, dinamit və bunlara bənzər başqa partlayıcı maddələrin daşınması;

b) mayeləşdirilmiş neftin və ya neft məhsullarının müvafiq tarasız daşınması;

c) maye, sıxılmış və ya qazabənzər formada kimyəvi maddələrin və ya qazların daşınması;

d) NV-ni avadanlıq kimi istifadəsi, hər hansı treylerin, qoşqunun və yarımqoşqunun və ya qurğunun avadanlıq kimi işlədilməsi.

16.1.2. mənəvi zərər;

16.1.3. əldən çıxan gəlir, gəlir itkisi, işin dayanması ilə bağlı və ya digər dolayı və kommersiya itkiləri, zərərləri və xərcləri;

16.1.4. Səs və ya səsin sürətindən yüksək sürətlə hərəkət edən təyyarələr və digər hava aparatları ilə bilavasitə və ya dolayı olaraq yaranan təzyiq dalğaları, həmçinin elertromaqnit dalğaları nəticəsində əmələ gəlmiş itki, məhv olma və ya digər zərərlər.

16.1.5. Ətraf mühitin çirklənməsi ilə bağlı irəli sürülmüş iddialar;

16.1.6. Bu Qaydaların Xüsusi hissəsində nəzərdə tutulmuş digər məhdudiyyətlər.

16.1.7. Sığorta müqaviləsində qanunvericiliyə zidd olmayan başqa digər məhdudiyyətlər nəzərdə tutula bilər.

16.2. Bu Qaydalarda müəyyən edilmiş hər hansı məhdudiyyət və ya məhdudiyyətlər tərəflərin razılığı ilə sığorta müqaviləsi üzrə sığorta təminatına daxil edilə bilər.

## 17. SIĞORTA HADISƏSI BAŞ VERDIKDƏ SIĞORTALININ VƏZIFƏLƏRI

17.1. Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan sonra mümkün olan ən qısa müddət ərzində, lakin 24 saatdan gec

olmamaq şərtilə sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda qanunvericiliyə uyğun olaraq həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

17.2. Bu Qaydaların 17.1-ci bəndində üzərinə məlumatlandırma vəzifəsi qoyulan şəxslərdən başqa digər şəxslər, o cümlədən səlahiyyətli dövlət orqanları və müvafiq hallarda zərərçəkən tərəfindən də sığorta hadisəsinin baş verməsi haqqında hər hansı vasitə ilə sığortaçıya xəbər verilməsi sığorta hadisəsi barədə məlumatlandırılma hesab edilir.

17.3. sığortalı (və ya sığorta olunan, yaxud faydalanan şəxs) Sığortaçı (onun nümayəndəsi) tərəfindən verilən bütün göstərişlərə əməl etməlidir;

17.4. Sığortalı sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları Sığortaçıya təqdim etməlidir;

17.5. Sığortalı Sığortaçıya sığorta hadisəsi üzrə araşdırma aparmağa və ona zərərin baş verdiyi şəraiti, onun xarakteri və həcmini müəyyənləşdirmək üçün əhəmiyyət daşıyan sənədlərlə maneəsiz tanış olmaq imkanını verməlidir (şərait yaratmalıdır);

17.6. sığortalı və ya sığorta olunan aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətində sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

17.6.1. zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

17.6.2. Sığortaçı sığorta hadisəsi barədə bu Qaydalarda nəzərdə tutulmuş qaydada məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;

17.6.3. zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

17.7. zərərin qarşısının alınması və ya təsirinin azaldılması və zərər vurulmuş əmlakın xilas edilməsi üçün bütün mümkün tədbirləri görmək və belə tədbirlərin görülməsi zamanı Sığortaçıdan aldığı bütün təlimatlara əməl etmək;

17.8. Sığortaçının razılığı olmadan zədələnmiş NV-nin təmir olunması və ya əlavə quraşdırılmış avadanlığın NV-dən sökülməsi (demontaj olunması) ilə bağlı işlərə başlamamaq. Sığortalı (Faydalanan şəxs, sürücü) zədələnmiş NV-nin təmir olunması və ya əlavə quraşdırılmış avadanlığın NV-nin sökülməsi (demontaj olunması) ilə bağlı işlərə sürücü və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi üçün və ya dövlət orqanlarının tələbi ilə başlaya bilər;

17.9. NV-nin oğurlanması və ya qaçırılması hallarında Sığortalı Sığortaçıya NV-nin qeydiyyat şəhadətnaməsini və NV-nin açarlarını (bütün komplektləri) təhvil verməlidir. Sığortalı bunları Sığortaçıya təhvil vermədiyi təqdirdə səbəbləri göstərməklə yazılı surətdə izahat verməlidir.

18. SIĞORTA ÖDƏNIŞININ HƏYATA KEÇIRILMƏSI QAYDASI VƏ ŞƏRTLƏRI:

18.1. Sığortaçı sığorta ödənişini sığorta məbləği həddində həyata keçirir.

18.2. Sığorta ödənişi sığorta hadisəsinin baş verməsi nəticəsində Sığortalıya dəyən real zərərin miqdarından çox ola bilməz.

18.3. Sığorta hadisəsinin baş verdiyi məqamda sığorta məbləği sığorta predmetinin (obyektinin) sığorta dəyərindən az olarsa, bu halda sığorta ödənişinin məbləği sığorta məbləği ilə sığorta dəyərinin nisbətinə müvafiq surətdə azaldılır və sığorta ödənişi aşağıda göstərilən düstura müvafiq həyata keçirilir:

SÖ = (SM / SD) x DZ

Burada:

SÖ – Sığorta ödənişi

SM – Sığorta məbləği

SD –NV-nin sığorta dəyəri (sığorta hadisəsi baş verdiyi gün onun bazar qiyməti)

DZ – nəqliyyat vasitəsinə dəyən zərər

18.4. Sığorta müqaviləsində azadolma məbləği nəzərdə tutulduğu halda, sığorta ödənişi azadolma məbləği çıxılmaqla ödənilir.

18.5. Azadolma məbləği(ləri), hər bir hadisə üzrə, yalnız hazırkı Qaydalar ilə müəyyən olunmuş Qismən sığorta haqqında şərtin tətbiq olunmasından sonra sığorta ödənişinin məbləğindən çıxılır.

18.6. Bu Qaydaların Bölmə III üzrə nəzərdə tutulan təminat istisna olmaqla, Sığortalının üçüncü tərəfdən təzminat alması halında, bu təzminatın məbləği azadolma məbləğinin tətbiqindən əvvəl sığorta ödənişi məbləğindən çıxılmalıdır.

18.7. Sığorta ödənişinin miqdarının müəyyən edilməsi qaydası bu Qaydaların Xüsusi Hissələrində müəyyən edilir.

18.7. Zərərin miqdarı barədə tərəflər arasında razılıq əldə edildikdən sonra, sığorta ödənişinin verilməsi Sığortaçının seçimi əsasında aşağıdakı formalarda həyata keçirilə bilər:

18.7.1. Zərər məbləğinin pul şəklində faydalanan şəxsə ödənilməsi;

18.7.2. sığorta hadisəsi nəticəsində dəyən zərərin aradan qaldırılması üçün Sığortalıya (sığorta olunana və ya faydalanan şəxsə) göstərilən xidmətlərin və ya satılan əşyaların dəyərinin xidmət göstərənə və ya satıcıya ödənilməsi;

18.7.3. zərərin natural formada ödənilməsi - sığorta müqaviləsində nəzərdə tutularsa, həmin müqavilədə müəyyən edilən şərtlər əsasında sığorta predmeti olan əmlakın dəyişdirilməsi.

18.8. Girov qoyulan əmlakın sığortası üzrə sığorta hadisəsi baş verdiyi tarixdə faydalanan şəxs olan girov saxlayana borclunun (girov qoyanın) borc (kredit) müqaviləsi üzrə sığorta ödənişinin verildiyi tarixə ona ödəməli olduğu məbləğdən artıq sığorta ödənişi verilə bilməz.

19. SIĞORTA ÖDƏNIŞININ VERILMƏSI ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏRIN SIYAHISI:

19.1. Sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün Sığortaçının aşağıdakı sənədləri tələb etmək hüququ vardır:

19.1.1. sığortalının, sığorta olunanın və ya digər faydalanan şəxsin sığortaçıya ünvanladığı, sığorta hadisəsinin təfərrüatlarını və nəticəsini əks etdirən sığorta tələbi;

19.1.2. sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;

19.1.3. Oğurluq, quldurluq, qaçırma və soyğunçuluq nəticəsində NV-nin məruz qaldığı zərərlər hallında:

- müvafiq hadisə ilə bağlı açılan cinayət işinin nəticələri barədə müvafiq dövlət orqanının (vəzifəli şəxsinin) təqdim etdiyi arayışı və ya hadisə ilə bağlı cinayət işinin başlanması barədə qərar (əgər varsa);
- Nəqliyyat vasitəsinin DİN-nin oğurlanmış nəqliyyat vasitələri siyahısında olduğunu təsdiq edən sənəd.

19.1.4. Inzibati xəta haqqında protokol (surəti)

19.1.5. Hadisə yerinin sxemi (surəti);

19.1.6. Tibbi müayinə protokolları (surəti);

19.1.7. NV-nin dövlət qeydiyyat şəhadətnaməsi (surəti). NV-nin oğurlandığı və ya qaçırıldığı halda isə qeydiyyat şəhadətnaməsinin əsli; əgər NV-nin qeydiyyat şəhadətnaməsi oğurlanmış və ya qaçırılmış NV-nin içərisində qalmışdırsa, onun Daxili İşlər Nazirliyinin müvafiq orqanı tərəfindən verilən dublikatı, yaxud cinayət işinə əlavə edilmişdirsə, bu faktı təsdiq edən arayış;

19.1.8. Yol nəqliyyat hadisəsi iştirakçılarının izahatları (surəti);

19.1.9. Nəqliyyat vasitəsini idarə etmiş şəxsin Sürücülük vəsiqəsi (surəti);

19.1.10. NV-ni idarə etmək üçün yol vərəqəsi, etibarnamə və ya nəqliyyat vasitəsi üzərində sahiblik və ya istifadə hüququnu təstiq edən digər sənəd;

19.1.11. NV-nin mülkiyyətçisinin (sığortalının) şəxsiyyət vəsiqəsi;

19.1.12. Yol nəqliyyat hadisəsinə dair arayış (forma №4).

19.1.13. zərər məbləğini təsdiqləyən sənəd;

19.1.14. müvafiq hallarda sığorta hadisəsi nəticəsində üçüncü şəxsin və ya sığorta olunanın sağlamlığına dəyən zərər üzrə xəsarətin dərəcəsi haqqında həkim arayışı, əlillik halında isə əlilliyin qrupunu, səbəbini və təyin edilməsi tarixini əks etdirən Tibbi Sosial Ekspert Komissiyasının arayışının surəti;

19.1.15. müvafiq hallarda sığorta hadisəsi nəticəsində üçüncü şəxs və ya sığorta olunan öldükdə, ölümün səbəbi haqqında tibbi arayış və ya müvafiq hallarda tibbi ekspertiza rəyi, ölüm haqqında şəhadətnamənin notariat qaydasında təsdiq olunmuş surəti, vərəsənin (hüquq varisinin) vərəsəlik hüququnu təsdiq edən sənəd və onun şəxsiyyət vəsiqəsinin surəti;

19.1.16. müvafiq hallarda sığortalı və ya sığorta olunan tərəfindən əmlaka vurulan zərərin əvəzi ödənilmiş olduqda və ya sağlamlığa vurulan zərərlə əlaqədar zəruri və qanuni ödəmə həyata keçirildikdə, belə ödəməni təsdiq edən sənədin müvafiq qaydada təsdiq edilmiş surəti;

19.1.17. Tibb müəssisələrinin göstərdiyi tibbi xidmətlərlə əlaqədar yaranan xərclərin, reseptlər əsasında alınmış dərman və preparatlarının ödənilməsini təsdiqləyən sənədlər;

19.1.18. faydalanan şəxs fiziki şəxs olduqda onun şəxsiyyət vəsiqəsinin surəti, hüquqi şəxs olduqda isə onun təsis və dövlət qeydiyyatı haqqında sənədlərin notarial təsdiq olunmuş surəti və sığorta ödənişini almaq üçün təyin edilən nümayəndəsinə verilmiş müvafiq etibarnamə;

19.1.19. Yuxarıdakı bəndlərdə şadlanan sənədlər minimal zəruri olan sənədlərin toplusudur. Sığortaçı zərurət yarandıqda sığorta hadisəsinin baş verməsi səbəblərini və faktını, həmçinin dəyən zərərin həcminin müəyyən edilməsi üçün zəruri olan digər sənədlərin təqdim edilməsini tələb etməyə haqlıdır.

## 20. SIĞORTA ÖDƏNIŞININ VERILMƏSI, YAXUD SIĞORTA ÖDƏNIŞININ VERILMƏSINDƏN IMTINA OLUNMASI HAQQINDA QƏRARIN QƏBUL EDILMƏSI MÜDDƏTI

20.1. Qanunvericilikdə və bu Qaydalarda nəzərdə tutulan sığorta ödənişindən imtina halları və sığorta ödənişi barədə qərarın taxirə salınması halları istisna olmaqla, Sığortaçı bu Qaydaların 19-cü maddəsində sadalanan sənədləri aldıqdan sonra 15 iş günü ərzində:

20.1.1. ödənişə əsas verən sənədi (sığorta aktı, razılaşma, protokol və s.) tərtib edir və razılaşdırılması üçün bu sənədi Sığortalıya (Sığorta olunana, Faydalanan şəxsə və/vəya üçüncü səxsə) təqdim edir və ya sığorta ödənişinin verilməsindən imtina olunduğu halda onlara imtinanın səbəblərini əsaslandırmaqla yazılı məlumat verir.

20.1.2. Sığorta ödənişinin verilməsi, ödənişə əsas verən sənədin (sığorta aktının, razılaşmanın, protokolun və s.) tərəflərin imzalamasından sonra 10 iş günü ərzində həyata keçirilir.

20.2. Sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı mülki məsuliyyətin sığortası üzrə üçüncü şəxs barəsində, digər hallarda isə sığortalı və ya sığorta olunan barəsində həmin hadisənin baş verməsi ilə əlaqədar inzibati xəta üzrə iş və ya cinayət işi başlanarsa, sığortaçı müvafiq sığorta ödənişinin verilib-verilməməsi barədə qərarını səlahiyyətli orqanın bu iş üzrə yekun qərarından sonra qəbul edir.

20.3.Sığortaçıya sığorta hadisəsi baş verən vaxtdan bildirilməklə oğurlanmış nəqliyyat vasitəsinin tapılması üçün səlahiyyətli orqanlar tərəfindən həyata keçirilən axtarışlar 60 gün ərzində nəticə verməzsə, sığortalı bununla əlaqədar müvafiq orqanlara müraciət etdiyini subut edən sənədləri təqdim etməklə sığorta ödənişini tələb edə bilər.

20.4. Qanunvericilikdə və ya sığorta müqaviləsində nəzərdə tutulmuş əsaslar aşkar olunduqda və ya əmələ gəldikdə, Sığortaçı verilmiş sığorta ödənişinin geri qaytarılması tələbini irəli sürmək hüququna malikdir.

## 21. SIĞORTA ÖDƏNIŞININ VERILMƏSINDƏN IMTINANIN ƏSASLARI

21.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

21.1.1. Zərər bu Qaydaların 16.1.-ci bəndində nəzərdə tutulan hallarla bağlı olduqda;

21.1.2. sığorta hadisəsi barədə sığortaçıya qanunvericilikdə və bu Qaydaların 17.1-ci bəndində nəzərdə tutulmuş qaydada məlumat verilməməsi nəticəsində Sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı bu Qaydaların 17.7-ci maddəsinə riayət edilmədikdə;

21.1.3. sığortalı sığortalanmış NV-nə dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün zəruri və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görmədikdə; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin məbləği həmin həcmdə azalmış olardı;

21.1.4. sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi və ya şərait yaradılmaması nəticəsində sığortaçı hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda;

21.1.5. bu Qaydaların 22.2-ci bəndi nəzərə alınmaqla, sığortalının NV, sığorta olunan və (və ya) sığorta hadisəsi barəsində sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçı sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda;

21.1.6. NV-nin sığortası üzrə sığortalı, sığorta olunan və ya faydalanan şəxs zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən aldıqda. Zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda, sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;

21.1.7. baş vermiş hadisə qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilmədikdə;

21.1.8. sığorta müqaviləsində sığorta haqqının hissə-hissə ödənilməsinin razılaşdırıldığı və ilk hissəsinin ödənildiyi halda növbəti hər hansı hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu Qaydaların 13.3-cü bəndində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda.

21.1.9. Sığortalanmış NV-nin sürücüsü hadisə yerindən qaçdıqda və ya hadisə zamanı onun sərxoş olub-olmamasının müəyyən edilməsi üçün tibbi müayinədən (ekspertizadan) keçməkdən imtina etdikdə);

21.1.10. qanunvericilikdə, sığorta müqaviləsində və bu Qaydaların Xüsusi hissəsində nəzərdə tutulmüş digər hallarda.

## 22. SIĞORTA ÖDƏNIŞININ GECIKDIRILMƏSININ NƏTICƏSI

Sığortaçı sığorta ödənişini bu Qaydalarla müəyyən olunmuş müddətdə ödəmədikdə hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0,1 faizi həcmində dəbbə pulu ödəyir.

## 23. SUBROQASIYA HÜQUQU

23.1. Sığortalanmış NV-nə dəymiş zərərin əvəzini ödəmiş sığortaçı sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən istifadə etmək hüququna malikdir.

23.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüququ sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

23.3. Faydalanan şəxs sığorta ödənişini aldıqda subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

23.4. Faydalanan şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.

23.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin qanunvericiliyə əsasən dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

23.6. Fərdi Qəza sığortasına aid olan hallarda subroqasiya hüququ tətbiq edilmir.

## 24. SIĞORTA MÜQAVILƏSININ ÜSTÜNLÜYÜ

Sığorta müqaviləsinin tərəfləri müqavilədə bu Qaydaların müəyyən müddəalarının istisna edilməsini, həmçinin həmin müdəalardan fərqli müddəalar daxil edilməsini nəzərdə tuta bilərlər. Bu halda konkret müqavilələrdə müəyyən edilmiş müddəalar tətbiq edilir.

## 25. MÜBAHISƏLƏRIN HƏLLI QAYDASI

25.1. Sığorta müqaviləsidən irəli gələn mübahisələr tərəflərin qarşılıqlı razılığı ilə həll olunur.

25.2. Mübahisələrin həllində tərəflər arasında qarşılıqlı razılığın əldə olunması mümkün olmadıqda, mübahisələr məhkəmə qaydasında həll edilir.

25.3. Sığorta müqaviləsi üzrə hüquqlarının sığortaçı tərəfindən pozulduğunu hesab edən sığortalı, sığorta olunan və ya faydalanan şəxs sığorta nəzarəti orqanına şikayət ərizəsi ilə müraciət edə bilər.

## XÜSUSİ HİSSƏ

### BÖLMƏ II. NV-LƏRININ SIĞORTASI

#### 26. SIĞORTANIN PREDMETI

26.1. Bu bölmə üzrə sığorta predmeti sığortalanmış NV-ləridir.

#### 27. SIĞORTA RISKLƏRI

27.1. Sığortalıya bu Qaydalar əsasında aşağıdakı bəndlərin birində və ya bir neçəsində qeyd olunan risklər nəticəsində NV-nə dəyə bilən zərərlərdən sığorta təminatı verilir və təminat verilən risklər sığorta müqaviləsində konkret göstərilir:

27.1.1. **avtonəqliyyat hadisəsi** – NV-nin istismar və istifadəsi nəticəsində baş verən, ölüm və bədən xəsarəti ilə nəticələnən, heyvanların və ya hərəkətsiz maneənin vurulmasına, habelə hər hansı digər əmlakın zədələnməsinə səbəb olan hadisələr;

27.1.2. **atılmış və ya düşmüş əşya** – NV-nin hissələrinə zərər vurmadan rəng örtüyünün nöqtələr şəklində zədələnməsi halı istisna olmaqla, NV-nin xarici səthinə daş, qar, buz və digər əşyaların atılması, dəyməsi və ya düşməsi;

27.1.3. **üçüncü şəxsin qanunazidd hərəkəti**;

27.1.4. **oğurluq, quldurluq, qaçırma və soyğunçuluq**;

27.1.5. **yanğın və partlayış** - *a) yanğın* – alovlanma mənbəyindən asılı olmayaraq maddi ziyan vuran yanma, o cümlədən yüksək temperaturun, yanğın məhsullarının, eləcə də yanğının söndürülməsi üçün istifadə olunmuş su, köpük və digər vasitələrin təsiri, habelə yanğının birbaşa təsiri; *b) partlayış* – qazların genişlənməyə meylliliyi nəticəsində böyük həcmdə enerjinin qısa müddət ərzində məhdud ölçülü məkandan sürətlə çıxaraq azad olması prosesi;

27.1.6. **təbii fəlakət** – Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sel, daşqın, zəlzələ, fırtına, qasırğa, tufan, dolu və digər təbii hadisələr;

27.1.7. **heyvanların hərəkəti –** NV-nin salonuna vurulan zərərlər istisna olmaqla, heyvanların və quşların hərəkəti.

27.1.8. **avtokasko –** bu Qaydaların 27.1.1-27.1.7-ci bəndlərində göstərilən risklərin məcmusu.

27.1.9. Xüsusi sığorta proqramları üzrə müəyyən edilmiş risklər və təminatlar: konkret sığorta müqavilələrində hazırkı Qaydaların 27.1.1 – 27.1.8. bəndlərində göstərilən risklərdən birinə və ya bir neçəsinə müəyyən məhdudiyyət və şərtlərlə təminat verilə bilər. Bu zaman hər bir konkret halda sığorta təminatı üzrə şərtlər sığorta müqaviləsində qeyd edilir.

#### 28. SIĞORTA HADISƏSI

Sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu Qaydaların 27-ci bəndində nəzərdə tutulmuş risklərin baş verməsi nəticəsində sığortalanmış NV-nə zərər dəyməsi faktı sığorta hadisəsi sayılır.

#### 29. SIĞORTA TƏMINATINDA ƏLAVƏ MƏHDUDIYYƏTLƏR

29.1. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmursa, bu Qaydaların 16-cı bəndində göstərilənlərdən əlavə aşağıdakılara münasibətdə də sığorta təminatı verilmir:

29.1.1. aşağıdakı hallarda dəyən zərər:

29.1.1.1. NV-nin dərman qutusunun, qəza dayanacağı işarəsinin, istehsalçı zavod tərəfindən quraşdırılmamış cihazlarının, həmçinin qeydiyyat nişanının oğurlanması, zədələnməsi və ya məhv olması;

29.1.1.2. NV-nin digər hissələri də eyni hadisə nəticəsində zədələndiyi hallar istisna olmaqla, şinlərinin zədələnməsi;

29.1.1.3. NV-nin açarlarına, elektron aktivləşdirmə kartı, brelok və s. bu kimi detallarına, onların sığorta hadisəsi hesab olunmayan hallar nəticəsində zədələnməsi və ya məhv olunması;

29.1.1.4. NV-nin banı və onun hissələri zədələnmədən onun rəng örtüyünün qopması və ya digər hər hansı formada zədələnməsi;

29.1.1.5. NV-ndə heç kəsin olmadığı zaman qapılarının və ya baqajının açarla bağlı olmaması, pəncərələrinin və ya tavanının (lyukunun) açıq qalması; açarın nəzarətsiz buraxılması və ya NV-nin içərisində qalması nəticəsində NV-nin və ya onun içərisində yerləşən hissələrinin qeyd olunan müvafiq səbəblərdən istifadə edilməklə oğurlanması və ya qaçırılması;

29.1.2. NV-nin dəyərdən düşməsi;

29.1.3. NV-nin vəziyyətini onun sığorta hadisəsindən əvvəlki vəziyyəti ilə müqayisədə yaxşılaşdıran hər hansı təmir və ya dəyişdirmə işləri;

29.1.4. NV-nin bütövlükdə və ya onun ayrı-ayrı hissə və aqreqatlarının təbii aşınması, köhnəlməsi, korroziyaya məruz qalması, onun əmtəə görünüşünün itməsi, istehsal və təmir nəticəsində yaranmış qüsurlar;

29.1.5. sığortalının, sürücünün və ya sərnişinlərin sığorta hadisəsinin baş verdiyi anda NV-də olan əmlakına dəyən zərər.

29.1.6. sığorta hadisəsi nəticəsində baş vermiş və ya sığorta hadisəsinin baş verməsinə səbəb olan hallardan başqa, nəqliyyat vasitəsinin istismar və istifadə olunması, o cümlədən nəqliyyat vasitəsinin mexanizmlərinin, qurğularının, cihaz və aqreqatlarının içinə kənar əşyaların, maddələrin və suyun düşməsi səbəbindən nəqliyyat vasitəsinin hissə və detallarının sınması, nasaz vəziyyətə düşməsi, sıradan çıxması;

29.1.7. yük və minik NV-rinin yük daşıyan modifikasiyalarının, qoşqu və yarımqoşquların sığortası zamanı tentin zədələnməsi və ya oğurlanması;

29.1.8. Dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə sığortalanmış nəqliyyat vasitəsinə əmlak hüquqlarını əldə etmə ilə əlaqədar baş vermiş zərərlər;

29.1.9. Yazılı və ya şifahi formada olmasından asılı olmayaraq girov, şərtli satış, icarə və ya digər müqavilə və yaxud hər hansı razılaşma əsasında qanuni şəkildə girov saxlayan, alıcı, icarədar və ya nəqliyyat vasitəsi üzərində qanuni sahibliyi həyata kecirən digər şəxs tərəfindən saxlanılan nəqliyyat vasitəsinin qeyri-qanuni satışı, mənimsənilməsi və ya gizlədilməsi.

## 30. SIĞORTA MƏBLƏĞİ

30.1. Sığorta məbləği sığorta müqaviləsində müəyyən olunur.

30.2. NV-nin sığortası üzrə müəyyən olunan sığorta məbləği sığortalanan NV-nin bazar dəyərindən artıq ola bilməz.

30.3. NV-nin sığortası üzrə sığorta məbləği sığortalanan NV-nin bazar dəyərindən artıq olduğu halda (ikili və ya çoxqat sığorta halında), sığorta müqaviləsi müvafiq sığorta məbləğinin həmin dəyərdən artıq olan hissəsində etibarsızdır.

30.4. NV sığortalı tərəfindən qanunsuz gəlir əldə etmək məqsədilə bir və ya bir neçə sığorta müqaviləsi əsasında onun bazar dəyərindən artıq məbləğə sığorta etdirildikdə, bu məqsədlə bağlanmış hər bir sığorta müqaviləsi bağlandığı andan etibarsız sayılır.

## 31. QISMƏN SIĞORTA

31.1. NV-nin sığortası üzrə müqavilədə göstərilmiş sığorta məbləği NV-nin bazar dəyərindən az olduğu halda (qismən sığorta halında), zərərin əvəzi sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödənilir.

## 32. SIĞORTA ÖDƏNIŞI VƏ ONUN HƏYATA KEÇIRILMƏSI

32.1. Sığorta ödənişinin məbləği sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalanmış NV-nə dəyən real zərərin məbləğindən çox ola bilməz.

32.2. Əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta hadisəsi nəticəsində dəymiş zərərin əvəzi aşağıdakı formalarda verilə bilər:

32.2.1. NV-nə ***qismən zərər dəydikdə***:

32.2.1.1. nəqliyyat vasitəsinə/əlavə quraşdırılmış avadanlıqlara dəymiş zərərin əvəzinin ödənilməsi sığorta predmetinin sığorta hadisəsinin baş verməsindən əvvəl mövcüd olan vəziyyətinə gətirilməsi üçün tələb olunan xərclərdən artıq ola bilməz.

32.2.1.2. Sığorta hadisəsinin baş verdiyi yerdə, sığorta predmetinin bilavasitə sığorta hadisəsinin baş verməsindən əvvəl mövcud olan vəziyyətinə gətirilməsi üçün tələb olunan xərclər bərpa xərcləri kimi başa düşülür.

Aşağıdakılar bərpa xərclərinə daxil edilir:

- Təmir (bərpa) üçün tələb olunan materialların, ehtiyyat hissələrinin, detalların, aqreqatların və avadanlıqların alınması üzrə xərclər;
- təmir işlərinin ödənilməsi üçün tələb olunan xərclər.

32.2.1.3. Sığorta müqaviləsində aşınma faizi təsbit edildiyi hallarda, ehtiyat hissələrinin əvəzinin ödənilməsi xərcləri aşınma faizinə müvafiq olaraq azaldılır.

32.2.2. NV-nin ***tam məhv olması*** (NV-nin sığorta hadisəsindən əvvəlki vəziyyətə çatdırılması üçün təmiri və ya bərpasına tələb olunan xərclərin NV-nin bazar dəyərinin 75 %-ni və ya daha çox hissəsini təşkil etməsi), ***yaxud oğurlanması və ya qaçırılması*** halında:

32.2.2.1. sığorta məbləğindən çox olmamaq şərtilə NV-nin sığorta hadisəsi baş verdiyi andan dərhal əvvəlki bazar dəyərinin pul şəklində ödənilməsi. Tam məhv olma halında sığortaçının öz seçimi əsasında NV-nin qalıqlarının dəyərini sığorta ödənişi məbləğindən çıxmaq və ya həmin qalıqların onun mülkiyyətinə verilməsini tələb etmək hüququ vardır.

32.2.2.2. sığortalanmış NVin eyni marka və modeldən olan, habelə eyni texniki vəziyyətdə olan digər NVlə əvəz edilməsi.

32.2.3. Hər halda bu Qaydaların 32.2.1. və 32.2.2. bəndlərində göstərilən hallar üzrə sığorta ödənişləri eyni sığorta müddəti ərzində əvvəllər baş vermiş sığorta hadisəsi(ləri) üzrə həyata keçirilmiş sığorta ödənişləri məbləğində azalmış və Sığortalı tərəfindən əlavə sığorta haqqının ödənilməsi yolu ilə bərpa olunmamış sığorta məbləğinin qalıq hissəsindən çox ola bilməz.

32.3. NV-nin təmir xərcləri Sığortaçının, yaxud Sığortaçının təyin etdiyi mütəxəssis və yə təmir müəssisəsi tərəfindən aparılmış hesablamalar əsasında müəyyən edilir.

32.4. Sığorta ödənişi bu Bölmənin 32.2.1.1-ci və 32.2.1.2-ci bəndlərində nəzərdə tutulmuş formalarda ödənildiyi hallarda sığortalı bərpa olunmuş NV-ni və onun dəyişdirilmiş hissələrini sığortaçıya təqdim etməlidir. NV-nin təmir və bərpası üçün sığorta ödənişinin pul şəklində Sığortaçı tərəfindən ödənildiyi halda və ya sığorta ödənişindən imtina edildiyi halda, NV təmir və ya bərpa olunduqdan sonra baxış keçirilməsi üçün növbəti sığorta hadisi baş verənə kimi Sığortaçıya təqdim olunmalıdır. Bu şərtə riayət olunmadığı halda Sığortaçı əvvəl dəymiş zərərlərə görə tələblərə baxılmır və belə tələblər üzrə sığorta ödəniçi verilmir.

32.5. Sığortaçı həmcinin aşağıdakı xərclərin əvəzini ödəyir:

32.5.1. NV sığorta hadisəsinin baş verməsi nəticəsində özü hərəkət edə bilmirsə, NV-nin hadisə yerindən təmir müəssisəsinə və ya dayanacağa aparılması üçün nəqliyyat (evakuasiyə) xərclərini, bu şərtlə ki belə tədbirlərin sığortalı tərəfindən görülməsi əvvəlcədən sığortaçı ilə razılaşdırılsın;

32.5.2. Sığortaçı zərərin qiymətləndirilməsi üzrə xərcləri ödəyir. Təkrar qiymətləndirmə xərcləri, onu tələb edən maraqlı tərəf tərəfindən ödənilir.

32.6. Sığorta predmetinə münasibətdə Sığortaçının məsuliyyətinin ümumi həddi sığorta müqaviləsidə göstərilən sığorta məbləğindən çox ola bilməz.

32.7. Müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, təmir işləri Sığortaçı tərəfindən seçilmiş təmir müəssisəsində həyata keçirilir. Sığortalının istəyi və sığortaçının razılığı ilə təmir işləri sığortalı tərəfindən seçilmiş təmir müəssisəsində həyata keçirilə bilər. Bu halda bu Qaydalarin 32 maddəsinə uyğun hesablanmış məbləğ Sığortalıya ödənilir və təmir prosesində çıxan əlavə xərclər sığortaçı tərəfindən ödənilmir, eyni zamanda təmirin təşkilində və keyfiyyətində sığortaçının məsuliyyəti olmur.

32.8. Sığorta ödənişinin həcmi Sığortalının (Faydalanan şəxsin) üçüncü tərəfdən aldığı məbləğin çıxılmasından sonra, və ya bir neçə sığorta şirkəti ilə sığorta müqavilələrinin bağlandığı halda hazırkı Qaydalar əsasında bağlanılmış sığorta müqaviləsi üzrə sığorta məbləğinin bütün digər sığorta müqavilələri üzrə ümumi sığorta məbləğinin nisbətinə müvafiq olaraq, azadolmanın tətbiq olunması şərti ilə müəyyən edilir. Sığortalı belə məbləğlərin alınması barədə Sığortaçıya dərhal məlumat verməlidir.

32.9. İpoteka qoyulan NV-nin sığortası üzrə sığorta hadisəsi baş verdiyi tarixdə faydalanan şəxs olan ipoteka saxlayana borclunun (ipoteka qoyanın) borc (kredit) müqaviləsi üzrə sığorta ödənişinin verildiyi tarixə ona ödəməli olduğu məbləğdən artıq sığorta ödənişi verilə bilməz.

## 33. TƏMIR VƏ YA BƏRPA XƏRCLƏRININ ÖDƏNILMƏSI ZAMANI NƏZƏRƏ ALINMAYAN AMILLƏR

33.0. Sığorta hadisəsi nəticəsində zərər dəymiş NVin təmiri və ya bərpası xərcləri hesablanarkən aşağıdakılar nəzərə alınmır:

33.0.1. nəqliyyat vəsitəsinə texniki xidmət və onun zəmanətli təmiri;

33.0.2. NV-nin ayrı-ayrı hissələrinin təbii aşınması və ya köhnəlməsi ilə bağlı aparılan bərpa işləri və ya belə hissələrin dəyişdirilməsi;

33.0.3. təmir yolu ilə istismara yararlı vəziyyətə gətirilə bilən hissələrin dəyişdirilməsi;

33.0.4. NV-nin zədələnmiş hissəsinin rənglənməsindən əlavə onun zədələnməmiş digər hissələrinin rənglənməsi.

## 34. OĞURLUQ VƏ QAÇIRILMA

34.1. NV oğurlanarsa və ya qaçırılarsa:

34.1.1. Sığortaçıya sığorta hadisəsi baş verən vaxtdan bildirilməklə oğurlanmış və ya qaçırılmış NV-nin tapılması üçün səlahiyyətli orqanlar tərəfindən həyata keçirilən axtarışlar 60 gün ərzində nəticə verməzsə, sığortalı bununla əlaqədar müvafiq orqanlara müraciət etdiyini subut edən sənədləri təqdim etməklə sığorta ödənişini tələb edə bilər. Sığortalı və ya NV-nin sahibinə qarşı cinayət işi açılarsa, sığortaçı ödənişin verilməsini cinayət işinin başa çatmasına qədər müvəqqəti olaraq dayandırır.

34.1.2. Oğurlanmış və ya qaçırılmış NV sığorta ödənişi verildikdən əvvəl tapılarsa sığortalı nəqliyyat vasitəsini qəbul etməlidir.

34.1.3. Sığortaçı tərəfindən sığorta dəyəri ödənilmiş NV ödəniş verildikdən sonra tapılarsa sığortalı bu məlumatı dərhal sığortaçıya bildirməyə borcludur. Bu zaman sığortalı sığortaçının vermiş olduğu ödəniş məbləğini qaytararaq NV geri götürməli və ya sığortaçının tələbinə əsasən sığortaçının həmin nəqliyyat vasitəsinə mülkiyyət hüququnu tanımalıdır. Sığortalı NV geri götürərsə, sığortaçı oğurluq və ya qaçırılma hadisəsi nəticəsində nəqliyyat vasitəsinə dəymiş ziyan məbləğini sığortalıya ödəməlidir.

## BÖLMƏ III. NV SAHIBLƏRININ MÜLKI MƏSULIYYƏTININ KÖNÜLLÜ SIĞORTASI

### 35. SIĞORTANIN PREDMETI

Bu Bölmə üzrə sığorta predmeti bu Qaydaların 2.0.1-ci bəndində nəzərdə tutulmuş NV-lərinin sahiblərinin mülki məsuliyyətinin yaranması halıdır.

### 36. SIĞORTA RISKLƏRI VƏ SIĞORTA HADISƏSI

36.1. NV sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə sığorta müqaviləsində göstərilən NV-nin istifadəsi zamanı üçüncü şəxslərin həyatına, sağlamlığına və (və ya) əmlakına dəyən zərərin əvəzinin ödənilməsi üzrə sığortalının (sığorta olunanın) mülki məsuliyyətinin yaranması riskindən sığorta təminatı verilir.

36.2. Qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığorta müqaviləsində göstərilən NV-nin istifadəsi zamanı üçüncü şəxslərin həyatına, sağlamlığına və (və ya) əmlakına vurulan zərərin əvəzinin ödənilməsinə görə sığorta olunanın mülki məsuliyyəti üzrə öhdəliyinin nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə qanunvericilikdə nəzərdə tutulmuş müvafiq sığorta məbləğindən artıq miqdarda olması faktı sığorta hadisəsi hesab edilir.

36.3. Bir hadisə nəticəsində bir neçə şəxsə zərərin dəyməsi halı bir sığorta hadisəsi sayılır.

36.4. Hər hansı bir hadisə nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası müqaviləsi ilə təmin olunmazsa, həmin hadisə avtonəqliyyat vasitəsi sahibinin mülki məsuliyyətinin könüllü sığortası bölməsi üzrə, baş vermiş hadisənin sığorta hadisəsi olması şərti ilə, təmin edilir.

### 37. SIĞORTA TƏMINATINDA ƏLAVƏ MƏHDUDIYYƏTLƏR

37.1. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmursa, bu Qaydaların 16-cı bəndində göstərilənlərdən əlavə, aşağıdakılara münasibətdə də sığorta təminatı verilmir:

37.1.1. Sığortalının işçisinin NV-nin sərnişini olarkən sığortalı ilə əmək münasibətlərindən irəli gələn peşə vəzifələrinin icrası zamanı ölməsi və ya bədən xəsarəti alması nəticəsində yaranan məsuliyyət;

37.1.2. NV-nin sərnişini kimi hərəkət edən sığorta olunanın hər hansı ailə üzvünün ölməsi və ya bədən xəsarəti alması nəticəsində yaranan məsuliyyət;

37.1.3. əmlaka vurulan zərərə görə əldən çıxmış fayda və ya digər dolayı zərərlərə görə məsuliyyət;

37.1.4. cərimələr və ya mənəvi zərərlərə görə təzminat ödəmək məsuliyyəti;

37.1.5. nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyət həddində ödənilməli olan zərər məbləğləri (üçüncü şəxsin əmlakına dəyən zərərlərə münasibətdə).

37.1.6. Qarşısıalınmaz qüvvənin təsiri və ya təbii fəlakət nəticəsində dəymiş zərərlər;

37.1.7. üçüncü şəxslərin və sərnişinlərin qəsdi nəticəsində dəymiş zərərlər;

37.1.8. üçüncü şəxslərin NV-ni qanunsuz ələ keçirərək istifadə etməsi nəticəsində dəymiş zərərlər;

37.1.9. Sığortalının və/və ya NV idarə edən sürücüsünün həyatına, sağlamlığına dəymiş zərərlər;

37.1.10. Sığortalanan NV-nə, qoşqusuna, onlarda quraşdırılmış avadanlığa, daşıdığı yükə dəymiş zərərlər;

37.1.11. NV-ndə olan əmlaka, yükə və heyvanlara dəymiş zərərlər;

37.1.12. NV-nin altında olan hər hansı körpüyə, viaduka, nəqliyyat magistralına və ya bunlara bənzər başqa tikiliyə nəqliyyat vasitəsinin titrəməsi və ya onun daşıdığı yükün çəkisinin ağırlığı nəticəsində dəyən ziyan.

37.1.13. sığortalanmış NV-ndə və (və ya) onun quşqusunda olan yükün vürduğu zərər;

37.1.14. NV-nə yüklənmə və ya boşaldılma ilə bağlı yaranan məsuliyyət;

37.1.15. Sığortalının və ya sürücünün əmlakına dəymiş zərərlər;

37.1.16. Sığortalının (Faydalanan şəxsin, NV-nin idarə etmək hüququna malik olan şəxsin) icarəyə, kirayəyə, lizinqə, saxlamaya və ya girov götürdüyü əmlakın (əşyaların) məhv olması, itməsi və zədələnməsi;

37.1.17. Müqavilə öhdəliklərinin yerinə yetirilməməsi (lazımınca yerinə yetirilməməsi) nəticəsində əmələ gəlmiş zərərlər;

37.1.18. Sığortalının, Sığorta olunanın yahud sürücünün Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən daşıdığı məsuliyyətdən əlavə, hər hansı fərdi razılaşma və ya müqavilə ilə, öz üzərinə götürdüyü məsuliyyətə əsasən əvəzini ödəməli olduğu zərərlər.

38. SIĞORTA MƏBLƏĞİ VƏ AZADOLMA MƏBLƏĞİ

38.1. NV sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə sığorta məbləği tərəflərin razılığı ilə sığorta müqaviləsində müəyyən olunur və üçüncü şəxsə dəyən zərərin nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə qanunvericilikdə nəzərdə tutulmuş müvafiq sığorta məbləğindən artıq miqdarda olan hissəsi üzrə sığortaçının öhdəliyinin son həddini ifadə edir.

38.2. NV sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə azadolma məbləği müəyyən edilə bilər.

39. SIĞORTA ÖDƏNIŞININ VERILMƏSI

39.1. NV sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə sığorta hadisəsi baş verdikdə ***üçüncü şəxsin əmlakına dəyən birbaşa zərərin əvəzi*** aşağıdakı məbləğlərdə ödənilir:

39.1.1. əmlak tamamilə məhv olduqda – istifadə üçün yararlı olan qalıqların dəyəri çıxılmaq şərtilə, həmin əmlakın sığorta hadisəsinin baş verməsi anında mövcud olmuş bazar dəyəri məbləğində;

39.1.2. əmlak qismən zədələndikdə - həmin əmlakın sığorta hadisəsindən dərhal əvvəlki vəziyyətinə qaytarılması üçün tələb olunan xərc məbləğində.

39.2. NV sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə sığorta hadisəsi baş verdikdə, ***üçüncü şəxsin həyat və sağlamlığına dəyən zərərin əvəzi*** aşağıdakı məbləğlərdə ödənilir:

**39.2.1. - VARİANT 1:**

39.2.1.1. zərərçəkənin malik olduğu, yaxud hadisə baş verməsə idi malik olması real olaraq ehtimal edilən və itirdiyi qazanc (gəlir) məbləğində;

39.2.1.2. Sığorta müqaviləsində başqa şərt nəzərdə tutulmamışdırsa, zərərçəkənin sağlamlığının pozulması ilə bağlı Azərbaijan Respublikasının daxilində çəkdiyi aşağıdakı xərclər: müalicə, əlavə qidalanma, dava-dərman, protezləşdirmə, başqasının qulluğu, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclər, bu şərtlə ki, zərərçəkənin həmin yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun qanunvericilikdə nəzərdə tutulmadığı müəyyənləşdirilsin;

39.2.1.3. ailə başçısı olan zərərçəkənin öldüyü halda onun himayəsində olan şəxslərin itirdiyi qazanc məbləğində;

**39.2.2 -VARİANT 2**

39.2.2.1. zərərçəkənin bədən xəsarətindən sığorta hadisəsi baş verdiyi tarixdən 1 il ərzində ölməsi — 100 faiz;

39.2.2.2. zərərçəkənin məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ölmüş elan edilməsi — 100 faiz;

39.2.2.3. zərərçəkənin bədən xəsarəti alması nəticəsində sığorta hadisəsi baş verdiyi tarixdən 1 il ərzində ona qanunvericilikdə nəzərdə tutulmuş qaydada əlillik qrupu təyin olunması - I qrup əlilliyə görə 80 faiz, II qrup əlilliyə görə 60 faiz, III qrup əlilliyə görə 40 faiz;

39.2.2.4. əlillik qrupu təyin olunmadan ağır xəsarət alması – 30 faiz;

39.2.2.5. yüngül xəsarət alması – 5 faiz.

39.2.2.6. Bu Qaydaların məqsədləri üçün ağır və yungül xəsarət növlərinin siyahısı qanunvericiliklə müəyyən edilir.

39.2.3. zərərçəkənin öldüyü halda 1000 (min) manatdan artıq olmamaq şərtilə onun dəfni ilə bağlı xərclər.

39.2.4. hazırkı bölmə ilə nəzərdə tutulan sığorta hadisəsinin baş verməsi ilə əlaqədar Sığortalının (sığorta olunanın) məhkəmə xərclərini (dövlət rüsumları və işə baxılması ilə əlaqədar olan məsrəflər) və/və ya ona qarşı irəli sürülmüş tələbin məhkəmədən kənar həll edilməsi üçün cəlb edilmiş vəkilin göstərdiyi yardıma görə xərci, bu şərtlə ki, göstərilən xərclər Sığortaçının əvvəlcədən verilmiş razılığı və ya göstərişi ilə çəkilmiş olsun.

39.2.5. təminat verilən zərərlərin azaldılması məqsədilə Sığortaçının göstərişlərinə əsasən çəkilən zəruri, əsaslandırılmış, ağlabatan və sənədləşdirilmiş xərclər.

39.2.6. Yuxarıda sadalanan bütün xərclərə münasibətdə sığortaçının məsuliyyətinin ümumi həcmi heç bir halda Sığorta müqaviləsində NV sahibinin mülki məsuliyyətinin sığortası bölməsində göstərilən müvafiq məsuliyyət həddini aşa bilməz.

39.3. Eyni sığorta hadisəsi nəticəsində bir neçə şəxsin əmlakına və ya həyat və sağlamlığına dəyən zərərin ümumi məbləği NV sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə müəyyən olunmuş sığorta məbləğindən artıq olduqda sığortaçı hər bir zərərçəkənə ona vurulan zərər məbləğinə mütənasib

məbləğdə sığorta ödənişi verir. Bu halda zərərçəkənlərin hamısına verilən sığorta ödənişinin ümümi məbləği NV sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə müəyyən olunmuş sığorta məbləğinə bərabər olmalıdır.

## BÖLMƏ IV. SÜRÜCÜLƏRIN VƏ SƏRNIŞINLƏRIN FƏRDI QƏZA SIĞORTASI

### 40. SIĞORTANIN PREDMETI

Bu Bölmə üzrə sığorta predmeti bu Qaydaların 2.0.1.-ci bəndində nəzərdə tutulmuş NV-lərin sürücüləri və sərnişinləridir.

### 41. SIĞORTA OLUNAN

41.1. Sığorta müqaviləsində göstərilən NV-ndə olan sürücü və sərnişin sürücülərin və sərnişinlərin fərdi qəza sığortası üzrə sığorta olunan hesab olunurlar.

41.2. Sığorta olunanların sayı NV-nin istehsalçısı tərəfindən nəzərdə tutulmuş oturacaq yerlərinin sayından çox ola bilməz.

### 42. SIĞORTA RISKLƏRI

42.1. Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, Fərdi qəza sığortası üzrə sığorta müqaviləsində göstərilən NV-nin istifadəsi ilə əlaqədar sürücüsünün və (və ya) sərnişininin həyat və sağlamlığına dəyə bilən zərərin aşağıda göstərilən hallarla nəticələnməsi risklərindən sığorta təminatı verilir:

42.1.1. əmək qabilliyətinin itirilməsi ilə əlaqədar I, II, III dərəcə əlilliyin müəyyən olunması;

42.1.2. 18 yaşınadək uşağın sağlamlıq imkanlarının məhdudlaşması;

42.1.3. ölüm.

42.1.4. Sərnişinlərin və sürücülərin tibbi xərcləri. Tibbi xərclər - nəqliyyat vasitəsinə zərər dəyməsi nəticəsində Sürücü və sərnişinlərin bu hadisə nəticəsində yaranmış zəruri və sənədləşdirilmiş tibbi xərclər.

42.2. Bu Qaydalar əsasında 42.1. bəndində göstərilən risklərin birində və ya bir neçəsinə sığorta təminatı verilə bilər.

### 43. SIĞORTA HADISƏSI VƏ ONA DAIR BƏZI TƏLƏBLƏR

43.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində və əhatə etdiyi ərazidə bu Qaydaların 27.1-ci bəndində və ya həmin bəndin bir və ya bir neçə yarımbəndində müəyyən edilmiş risklərin hər hansı birinin baş verməsinin 42.1-ci bəndində nəzərdə tutulmuş hallarla nəticələnməsi, 43.2-ci, 43.3-cü və 43.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla sığorta hadisəsi sayılır.

43.2. Sığorta olunanın ölməsi halı yalnız aşağıdakı halların hər biri mövcud olduqda sığorta hadisəsi sayılır:

43.2.1. ölümə səbəb olan bədbəxt hadisə sığorta müqaviləsi qüvvədə olan müddətdə və sığorta ərazisində baş vermiş olsun;

43.2.2. ölüm faktı ölümə birbaşa səbəb olan və sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə və sığorta ərazısında baş vermiş bədbəxt hadisənin nəticəsi olsun;

43.2.3. ölüm hadisəsi bədbəxt hadisənin baş verməsi tarixindən ən geci 1 il müddətində baş vermiş olsun.

43.3. Sığorta olunanın sağlamlığına dəymiş zərərlə əlaqədar olaraq ona I, II, III qrup əlilliyin təyin olunması və ya 18 yaşınadək uşağın sağlamlıq imkanlarının məhdudlaşması yalnız aşağıdakı halların hər biri mövcud olduqda sığorta hadisəsi sayılır:

43.3.1. zərərə səbəb olan bədbəxt hadisə sığorta müqaviləsi qüvvədə olan müddətdə və sığorta ərazisində baş vermiş olsun;

43.3.2. zərər birbaşa ona səbəb olmuş bədbəxt hadisə nəticəsində dəymiş olsun;

43.3.3. zərər bədbəxt hadisənin baş verməsi tarixindən ən geci 1 il müddətində müəyyən edilmiş olsun.

43.4. Sığorta olunanların tibbi xərclərinin yaranması, aşağıdakı halların hər biri mövcud olduqda sığorta hadisəsi sayılır:

43.4.1. Sığorta olunanların yaranmış tibbi xərcləri bədbəxt hadisə nəticəsində olduqda;

43.4.2. tibbi xərclərin yaranmasına birbaşa səbəb olan bədbəxt hadisə sığorta müqaviləsi qüvvədə olan müddətdə və sığorta ərazisində baş vermiş olsun.

### 44. SIĞORTA TƏMINATINDA ƏLAVƏ MƏHDUDIYYƏTLƏR

Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydaların 16-cı bəndində göstərilənlərdən əlavə bu sığorta ilə aşağıda sadalananların nəticəsi olaraq Sığorta olunanların həyat və sağlamlığına dəyən zərərlərə və ya ölümü hallarına təminat verilmir:

44.1. sığorta olunanın özünə sui qəsd etməsi halında;

44.2. nəqliyyat vasitəsini idarə edən Səlahiyyətləndirilmiş sürücünün ruhi pozğunluq vəziyyətində olması;

44.3. İnsan həyatını xilas etmək məqsədilə edildiyi hallar istisna olmaqla, bilərəkdən özünü təhlükə altına atma.

## 45. SIĞORTA MƏBLƏĞI

45.1. Sürücülərin və sərnişinlərin fərdi qəza sığortası müqaviləsi üzrə sığorta məbləği tərəflərin razılığı ilə sığorta müqaviləsində müəyyən olunur.

45.2. Əgər sığorta müqaviləsində başqa cür razılaşdırılmamışdırsa, Sürücülərin və sərnişinlərin fərdi qəza sığortası üzrə sığorta məbləği NV-nin bir oturacaq yeri, yəni bir sığorta olunan üçün sığorta məbləğini ifadə edir.

## 46. SIĞORTA ÖDƏNIŞININ VERILMƏSI

46.1. Sığorta hadisəsinin baş verməsi tarixindən 1 (bir) il müddətində sığorta olunanın ölməsi halında sığorta ödənişi sığorta məbləğinin 100 faizi həcmində onun vərəsələrinə verilir.

46.2. Sığorta olunanın sağlamlığına zərər dəyməsi halında sığorta ödənişi aşağıdakı məbləğlərdə ödənilir:

46.2.1. əmək qabilliyətinin itirilməsi ilə əlaqədar:

46.2.1.1. Birinci dərəcə əlillik müəyyən olunduqda – sığorta məbləğinin 100 faizi;

46.2.1.2. ikinci dərəcə əlillik müəyyən olunduqda – sığorta məbləğinin 80 faizi;

46.2.1.3. üçüncü dərəcə əlillik müəyyən olunduqda – sığorta məbləğinin 60 faizi;

46.2.2. 18 yaşınadək uşağın sağlamlıq imkanlarının məhdudlaşması müəyyən olunduqda – sığorta məbləğinin 100 faizi.

46.2.3. Sığorta olunanların tibbi xərcləri

Tibbi xərclərin sığortası üzrə Sığortaçı bədbəxt hadisə nəticəsində Sığorta olunanların təcili tibbi yardıma, həkim yardımına və dərman alınmasına zəruri və ağlabatan həcmdə çəkilmiş xərclərin əvəzini ödəyir. Lakin, tibbi xərclərin sığortası üzrə sanatoriya-kurort müalicəsinə, əlavə qidalanmaya, başqasının qulluğuna, protezləşdirməyə, xüsusi nəqliyyat vasitələrinin əldə edilməsinə çəkilmiş xərclər üzrə təminat verilmir və heç bir ödəniş həyata keçirilmir.

Sığorta olunanların həyatına və sağlamlığına fərdi qəza nəticəsində zərər dəydikdə, Sığorta olıunanlar Sığortaçının tələbi ilə onun tərəfindən təyin edilmiş həkimdə zərər çəkən şəxslərin tibbi müayinədən keçməlidirlər.

46.3. Bu bölmə üzrə hər hansı sığorta ödənişi almış sığorta olunana, ona əlilliyin təyin edilməsi, təyin edilmiş əlillik dərəcəsinin dəyişməsi, yaxud onun ölməsi ilə əlaqədar verilməli olan sığorta ödənişi məbləğindən bu Bölmə üzrə əvvəllər verilmiş bütün sığorta ödənişi məbləğləri çıxılır.